# Aydın Ağazadə - 60



**Hörmətli Aydın müəllim!**

Sizi - tanınmış yazıçı-publisisti 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz ədəbi yaradıcılığa ötən əsrin səksəninci illərində başlamısınız. 1976-1990-cı illərdə Azteleradiodakı fəaliyyətiniz də yaradıcılığınızın bir sahəsi kimi diqqətəlayiqdir. Geniş oxucu auditoriyası qazanmış "Həsən Əliyev - hakim və insan", "Cəllad aman istəyir", "Əbədi Selcan", "Sabun köpüyü" kitablarının, "Sonuncu şahid", "Baş tutmayan elçilik", "Dahi", "O dünyada görüşərik" pyeslərinin müəllifisiniz. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatrşünaslıq, Bakı Dövlət Universitetinin hüquq fakültələrinin məzunusunuz.

"Azərbaycan", "Ədalət", "Hüquqşünas" qəzetlərinin əməkdaşı olmusunuz. Hazırda Respublika Ədliyyə Nazirliyində İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi informasiya şöbəsinin rəisi, Ədliyyə müşavirisiniz.

Hörmətli Aydın müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

## Bildiriş

**Fevralın 18-də saat 14-də** Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda **Aydın Ağazadənin 60 illik** yubileyinə həsr olunmuş tədbir keçiriləcək.

*Maraqlananlar dəvət olunur*